# Azərbaycanda 1920-1950-ci illər repressiyaları



**Elşən Mirişli**

*Gəncə şəhəri, tarixçi*

**VI Yazı**

## Azərbaycan SSR Kommunist Partiyası rəhbərliyində repressiyalar

***Repressiyaya məruz qalanlar arasında Çingiz İldırım da oldu.Keçmişdə o Azərbaycan Xalq Cümhuriyyətinin Hərbi Dəniz Donanmasının rəhbəri olaraq dövlətinə xəyanət etmiş 1920-ci il 27 aprel işğalında əsas rol oynayan fiqurlardan olmuşdur.Böyük Terror zamanı Krivoy Roq şəhərində zavod direktoru olan Çingiz İldırımı "bəy oğlu" kimi həbs edərək Bakıya gətirib işgəncələr verdilər daha sonra Moskvaya yollayıb orada güllələdilər.***

***Repressiyalar Azərbaycan SSR Kommunist partiyasının rəhbərliyinin əksəriyyətini məhv etdi.Mir Bəşir Qasımov və Yusif Qasımovdan başqa bütün Hümmət üzvləri repressiya qurbanı oldular adları çəkilənlər isə həbs edildilər.Kommunist elitasının köhnə qvardiyası məhv edildi.Dadaş Bünyadzadə,Sultanməcid Əfəndiyev,Həmid Sultanov, onun həyat yoldaşı Ayna Sultanova,Teymur Əliyev,Ruhulla Axundov,Hüseyn Rəhmanov,Çingiz İldırım,Mirzə Davud Hüseynov,Mustafa Quliyev,Əliheydər Qarayev,Qəzənfər Musabəyov,İsay Dövlətov kimi sosializmin ən parlaq təmsilçiləri repressiya qurbanı oldular.***

Əliheydər Qarayev rejimin və partiyanın görkəmli xadimi idi.Əliheydər Qarayev "Hümməti"-in menşevik sonradan isə bolşevik qanadına mənsub idi.Menşevik Gürcüstan parlamentinin və eləcə də Müsavat parlamentinin də üzvü olmuşdur.Sonradan o Azərbaycan SSR-da Ədliyyə və Əmək komissarlılarına sonradan isə Xalq Hərbi Dəniz İşləri komissarlığına rəhbərlik etmişdir.Eyni zamanda o Azərbaycan SSR Müvəqqəti İnqilab Komitəsinin də üzvü olmuşdur.1920-ci illərin sonuna qədər o Azərbaycan Kommunist Partiyasında və eləcə də Sovet İttifaqlında Cənubi Qafqazda aparıcı vəzifələri tutmuşdur.

1928-1929-cu illərdə Respublika Mərkəzi Komitəsinin katibi olarkən o, Mircəfər Bağırovun partiyaya zidd hərəkətlərinin qarşısını almağa cəhd edərək sonuncunun hərəkətləri ilə bağlı dəfələrlə AKP MK-nın rəyasət heyətinin və Zaqafqaziya Diyar Komitəsinin qarşısında bu mövzunu qaldırmışdı.Öz növbəsində Mircəfər Bağırov da Əliheydər Qarayev haqqında surətini Beriyaya yollamaqla ərizələr yazırdı.21 aprel 1938-ci ildə Əliheydər Qarayevi güllələnməyə məhkum etdilər.

## Krım tatarlarının deportasiyası

18-20 may 1944-cü il tarixləri aralığında 500,000-dən çox Krım tatarı Krımdan sürgün edildi.Bu etnik təmizləmə İosif Stalinin göstərişi ilə Xalq Daxili İşlər Komissarı(XDİK) və gizli polisin rəhbəri Lavrenti Beriya tərəfindən həyata keçirilmişdir.Üç gün ərzində Beriyanın başçılıq etdiyi NKVD üzvləri,rus kommunistləri və Qırmızı Ordu hərbçiləri bütöv bir xalqı sürgün etmişdir.Qadınlar,uşaqlar və yaşlılar mal-qara qatarlarından istifadə etməklə bir neçə min kilometr uzaqlıqda yerləşən Özbəkistan Sovet Sosialist Respublikasına sürgün edilmişdir. Krım tatarları Stalinin əmrləri ilə Sovet İttifaqı ərazisində məcburi köçürülməyə məruz qalmış on etnik qrupdan biri idi.

Eyni zamanda Krım kişi tatar əhalisinin 15 faizi Qırmızı Ordu sıralarında döyüşürdü. İkinci Dünya müharibəsi ərzində 25,033 Krım tatarı Qırmızı Ordunun tərkibində döyüşlərdə iştirak etmişdir.Müharibə ərzində xidmətlərinə görə səkkiz nəfər Krım tatarı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür.Deportasiya vaxtı onlar da tərxis edilib Sibir və Uralın əmək düşərgələrinə göndərildilər.

1944-cü ilin mayında alman ordusunda xidmət edən Krım tatarlarının əksəriyyəti Almaniyaya çəkildi.Beləliklə,deportasiya olunanların əksəriyyəti yarımadada yaşayan qadınlar və uşaqlar oldu.Krım tatarlarının sürgün edilməsi Stalin hökumətini ərazini "ruslaşdırmağa" başlamaq üçün ruhlandırmışdır.Sürgün olunan Krım tatarlarının yerinə əraziyə əsasən ruslar, az miqdarda ukraynalılar və başqa slavyan xalqları köçürülmüşdü.



## Axısqa türklərinin deportasiyası

***Axısqa türklərinin deportasiyası Gürcüstan SSRİ-in (indiki Gürcüstan Respublikası) Mesxetiya regionunda yaşayan bütün Axısqa türklərinin 14 noyabr 1944-cü il tarixində sovet hökuməti tərəfindən Mərkəzi Asiyaya məcburi şəkildə köçürülməsi deportasiya zamanı 212 kənddə yaşayan 92.307-94.955 arası Axısqa türkü öz evlərindən məcburi şəkildə çıxarılmışdır.Onlar mal-qara üçün nəzərdə tutulmuş vaqonlara yerləşdirilmiş və əsasən Özbəkistan SSR-ə göndərilmişdir.Bu əməliyyat çərçivəsində digər etnik qrupların üzvləri də deportasiya edilmişdir.Əməliyyat zamanı 115.000 nəfərə yaxın şəxs deportasiya edilmişdir.Deportasiya olunanlar xüsusi yaşayış məntəqələrinə yerləşdirilmiş,orada məcburi əməyə tabe olunmuşdular.Deportasiya və sürgünün ağır şərtləri 12.000-50.000 insanın ölümünə səbəb olmuşdur.***

Deportasiya SSRİ Nazirlər Sovetinin sədri İosif Stalinin birbaşa əmriylə SSRİ Xalq Daxili İşlər Komissarı Lavrenti Beriya və daha 4.000 NKVD personalı tərəfindən icra olunmuşdur.Əməliyyatı yerinə yetirmək üçün 34.000. 000 (otuz dörd milyon) rubl ayrılmışdı.Bu,1930-cu illərdən 1950-ci illərə qədər sovet etnik azlıqlarının bir neçə milyon üzvünə təsir göstərmiş SSRİ hökumətinin məcburi yerləşdirmə proqramının və əhali köçürülmələrinin bir parçası idi.Deportasiya prosesi tamamlandıqdan sonra SSRİ hökuməti əsasən xristian ermənilərdən təşkil olunmuş 32.000 nəfəri Mesxetiya ərazisinə yerləşdirmişdir.

## Çeçen və İnquşların deportasiyası

Çeçen və İnquşların deportasiyası II Dünya Müharibəsi zamanı 23 fevral 1944-cü ildə Sovet İttifaqı tərəfdən çeçenlər və inquşlar zorla Şimali Qafqazdan Orta Asiyaya köçürülmüşdülər.1940-1944-cü il Çeçenistan üsyanından əvvəl SSRi hökumət başçısı İosif Stalinin razılığı ilə NKVD rəhbəri Lavrenti Beriya 1930-1950-ci illər ərzində rus olmayan bir neçə milyon etnik azlığa təsir edən məcburi yerləşdirmə və əhalinin köçürülməsi proqramının bir hissəsi olaraq deportasiya əmrini verdi.

## Çeçenistan üsyanı (1940-1944)

1939-cu ilin sonlarında Sovet İttifaqının Finlandiyaya qarşı Qış müharibəsindəki uğursuzluqlarından ruhlanan Həsən İsrailov çeçen millətçisi,jurnalist və Sovet İttifaqına qarşı 1940-ci ildən 1944-cü ildə vəfatına qədər çeçen-inquş üsyanına rəhbərlik edən bir şair idi.Həsən İsrailov və qardaşı Hüseyn sovetlərə qarşı silahlı vahid partizan hərəkatı təşkil etmək üçün çalışdıqları Çeçenistanın cənub-şərqindəki dağlarda partizan bazası qurdular.1940-cı il fevralın əvvəlinə qədər İsrailovun üsyançıları Şatoy rayonunda bir neçə kəndi ələ keçirdilər.Üsyançı hökumət İsrailovun doğma kəndi Qalançoyda quruldu.Az sonra NKVD-nin onlara qarşı göndərdiyi cəza dəstələrini məğlub edərək müasir silahları ələ keçirdilər.

İsrailov nəyə görə bu döyüşün içində olduğunu belə izah edirdi:"Mən öz xalqımın qurtuluş mübarizəsinin lideri olmağa qərar verdim.Mən çox yaxşı başa düşürəm ki,nəinki çeçen-inquş torpaqlarına,Qafqazın bütün xalqlarına qırmızı imperializmin ağır boyunduruğundan azad olmaq çətin olacaq.Ancaq ədalətə olan səmimi inamımız və Qafqazın və bütün dünyanın azadlıq sevən xalqlarının dəstəyinə inamımız size mənasız gəlsə də,həyatımdakı yeganə düzgün tarixi addımdır.Cəsarətli finlər indi Böyük Əsarət imperiyasının kiçik,lakin azadlıq sevən bir xalqına qarşı gücsüz olduğunu sübut edir.Qafqazda ikinci Finlandiyanızı tapacaqsınız və bizdən sonra digər məzlum xalqların azadlığını izləyəcəksiniz".

***Almaniyanın 1941-ci ilin iyununda SSRİ-yə hücumundan sonra qardaşlar 1941-ci ilin yayında 41 müxtəlif mitinq təşkil edərək "Çeçenistan-İnquşetiyanın Müvəqqəti Xalq İnqilabi Hökuməti" adı altında yerli tərəfdarları üsyana cəlb etdilər və həmin ilin ortalarında orta hesabla Qrozni,Qudermes və Malqobeki əhatə edən beş hərbi rayonda 5.000 partizan və ən azı 25.000 onlara rəğbət bəsləyəni öz ətrafına toplaya bildilər.Bəzi bölgələrdə kişilərin 80%-ə qədəri üsyana qoşuldu.Sovet İttifaqı üsyançılara qarşı xalqa bombası taktikasından istifadə etdiyi və ilk növbədə mülki əhalini soyqırım etdiyi məlumdur.Kütləvi sovet bombardmançı hava hücumları 1942-ci ilin yazında iki dəfə Çeçen-İnquş dağ kəndlərini hədəf aldı,bir neçə kəndi tamamilə dağıdıb və çox sayda qoca və uşaq da daxil olmaqla sakinlərinin əksəriyyətini qətlə yetirdilər.***

28 yanvar 1942-ci il tarixində bolşevik barbarlığı və rus despotizmi ilə silahlı mübarizəni genişləndirmək üçün çeçen-inquşlar daxil, Qafqazın 11 əsas etnik qrupunu ətrafında birləşdirən Qafqaz Qardaşları Xüsusi Partiyası Həsən İsrailov tərəfindən yaradıldı.

1942-ci ilin fevralında Mairbek Şərifov Şatoyda üsyan təşkil etdi və İtum-Kaleni ələ keçirməyə çalışdı.O, alman Vermaxtının gözlənilən gəlişinə güvənərək qüvvələrini İsrailovun ordusu ilə birləşdirdi.Qonşu Dağıstanda üsyançılar Novalak və Dilim kəndlərini də ələ keçirdilər.Qiyam Qızıl Ordunun bir çox çeçen və inquş əsgərlərini ordudan istefa verməyə məcbur etdi.Bəzi mənbələrdə Qızıl Orduda döyüşən dağlıların sayı,ordudan istefa verən dağlıların sayından daha az idi.Bu müddətdə 62 750 nəfər Qırmızı Ordudan istefa vermişdi.Əslində bu rəqəm müharibənin bütün dövrü üçün bütün Şimali Qafqaza aiddir.

Alman hücumu yalnız etnik ruslardan ibarət olan İnquşetiyanın Malqobek şəhərini ələ keçirəndən sonra dayandırıldı.Almanlar İsrailovla əlaqəyə keçmək üçün səylərini əsirgəmədilər,lakin inqilabi hərəkatın nəzarətini almanlara verməkdən imtina etməsi və Almaniya tərəfindən Çeçenistanın müstəqilliyinin tanınmasında israr etməsi bir çox almanın İsrailovun planlarının etibarsız və qeyri-real hesab edilməsinə səbəb oldu.Almanlar Çeçenistanda gizli əməliyyatlar-Qroznıdakı neft yataqlarının təxribatını həyata keçirə bilsələr də-Alman-Çeçen İttifaqı cəhdləri əngəllənmişdi.

1943-cü ildə Sovet əks-kəşfiyyat agentləri Çeçenistanda qalan Alman əməliyyatçılarına qarş əks-kəşfiyyat həmlələriylə və onları həbs etməsiylə Almaniyanın Çeçenistan işğalını sonlandırdı.Almaniyanın Qafqazdan geri çəkilməsindən sonra Çeçen-İnquş MSSR-də,eləcə də digər respublikalardan olan 500.000 çeçen və inquş xalqı Sibir və Orta Asiyaya köçürüldü,nəticədə deportasiya olunanlar arasında çoxlu sayda insan həlak oldu.Deportasiya olunmayanların çoxu yerindəcə qətlə yetirildi.Çeçenistanın dağlıq bölgəsində ruslar Xaybax soyqırımı kimi kütləvi vəhşilik törətdilər.

## Mərcmək əməliyyatı

Sovet İttifaqı 58-ci ordusu və NKVD yanvar1940-15 dekabr 1944-cü il mövcud olan Çeçenistan-İnquşetiyanın Müvəqqəti Xalq İnqilabi Hökumətini devirib məhv etməyi bacardı.Çeçenistan hərbi əməliyyatına 110 min əsgər cəlb edilmişdi.Çeçenistan müqaviməti qüvvələrinin sayı 18 min nəfərə güclə çatırdı.Sovet İttifaqı əsgərlərindən bəzi müstəqil təxminlərə görə 12 000 əsgəri öldürülmüş və çoxlu sayda yaralı əsgəri olmuşdu.General-leytenant Vasili Xomenko da Mərcmək əməliyyatında öldürülmüşdü.Çeçenlərin bu savaşda itkisi 4368 nəfər idi.

***Növbəti yaza qədər Çeçen-İnquş MSSR ləğv edildi; bir sıra çeçen və inquş adları rus adları ilə əvəz edildi;məcidlər və qəbirstanlıqlar dağıdıldı və çox sayda tarixi çeçen mətni yandırıldı.Qafqaz boyunca təxminən 700.000 nəfər (Dalxat Ediyevə görə 724.297: 479.478 çeçen,96.327 inquş,104.146 kalmık,39.407 balkar və 71.869 qaraçaylı) deportasiya edildi.Məcburi köç zamanı onların çoxu öldü və insanların sürgün edildiyi digər bölgələrdə olduğu kimi Sibirdə kəskin hava şəraiti daha çox adamı öldürdü.***

***18-20 may 1944-cü il tarixləri aralığında 500,000-dən çox Krım tatarı Krımdan sürgün edildi.Bu etnik təmizləmə İosif Stalinin göstərişi ilə Xalq Daxili İşlər Komissarı(XDİK) və gizli polisin rəhbəri Lavrenti Beriya tərəfindən həyata keçirilmişdir.Üç gün ərzində Beriyanın başçılıq etdiyi NKVD üzvləri,rus kommunistləri və Qırmızı Ordu hərbçiləri bütöv bir xalqı sürgün etmişdir.Qadınlar,uşaqlar və yaşlılar mal-qara qatarlarından istifadə etməklə bir neçə min kilometr uzaqlıqda yerləşən Özbəkistan Sovet Sosialist Respublikasına sürgün edilmişdir. Krım tatarları Stalinin əmrləri ilə Sovet İttifaqı ərazisində məcburi köçürülməyə məruz qalmış on etnik qrupdan biri idi.***

**(ardı var)**